# Ağdamda Müstəqillik Günü qürurla qeyd olundu

**Ağdam Muğam Mərkəzində 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. Rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası rayon təşkilatının və Qarabağ Regional Mədəniyyət İdarəsi Ağdam nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsini ziyarətlə başlamışdır.**





Çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov 28 may 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, onun mürəkkəb ictimai-siyasi dövrdə demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq kimi sahələrdə həyata keçirdiyi işlərin Azərbaycan tarixinin parlaq səhifəsi olmasından, Ulu Öndərin təşəbbüsü ilə 1998-ci ildə Cümhuriyyətimizin 80 illik yubileyinin keçirilməsindən, Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə "İstiqlal Bəyannaməsi" abidəsinin ucaldılmasından, 2018-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncam imzalanmasından və bu tarixi hadisə münasibətilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsindən danışmışdır.





Çıxışdan sonra Qaradağlı kənd uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında müxtəlif musiqi nömrələri təqdim edilmişdir.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilən bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunmuşdur.

***L.QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 28 may (№110).- S.17.